

İSLAM SADIQ

## SƏRÇƏ DƏRSİ

Tək sərçələr çəkir qışın nazını,
Sərçələr hər yerdə Vətən qoxuyur.
Gözlərinə tutub payın azını,
Cikhacik, cikhacik nələr oxuyur.

Ona daş atanın öpür daşını,
Qapıdan qovurlar, bacadan gəlir.
Sərçəcə olmayan dargöz naşının
Bəs səsi nə yaman ucadan gəlir.

Yazda solar qışda puçurlayanlar,
Bizdə tərsinədi, çox şey tərsinə.
Vətəni sevməyi bacarmayanlar,
Nolar, gecikməyin sərçə dərsinə.

## BULANA-BULANA...

Bulanlıq durulur, duru bulanır,
Adamın gözünün nuru bulanır.
Təmiz kişilərin goru bulanır,
Bulana-bulana hara gedirik?!

Bir ad neçə-neçə ada calanır,
Bir dad neçə-neçə dada calanır.
Kökündən ayrılan yada calanır,
Calana-calana hara gedirik?!

Dirinin başına ölü dolanır,
Kösöyün başına külü dolanır.
Tikanın başına gülü dolanır,
Dolana-dolana hara gedirik?!

Birinin bağında dəmlər sulanır,
Birinin bağında qəmlər sulanır.
Gör kimin suyuyla kimlər sulanır,
Sulana-sulana hara gedirik?!

Hər sözün dalından bir him boylanır,
Hər gözün dalından bir cim boylanır.
Kimlərin dalınca gör kim boylanır,
Boylana-boylana hara gedirik?!

Sözsüzün sözünə sözü yalanır,
Közsüzün közünə közü yalanır.
Millət öz qanına özü yalanır,
Yalana-yalana hara gedirik?!

Bu torpağın altı, üstü talanır,
Buxarını boğur tüstü, talanır.
Bir deyən tapılmır bəsdi, talanır,
Talana-talana hara gedirik?!

Sönmüş ocaq tapan ona qalanır,
Soyuq qucaq tapan ona qalanır.
Girir neçə-neçə dona, qalanır,
Qalana-qalana hara gedirik?!

Bulanlıq durulur, duru bulanır,
Adamın gözünün nuru bulanır.
Təmiz kişilərin goru bulanır,
Bulana-bulana hara gedirik?!

## KEÇİBDİ

Comalar söküldü, dəyə çəkildi,
Havalar soyudu deyə çəkildi.
Gözümün yuxusu göyə çəkildi,
Gecənin yarısı çoxdan keçibdi.

Nə ocaq üstünə yaş atdım yolda,
Nə də quş dalınca daş atdım yolda.
Beş addım gəlmişəm, beş addım yolda
Ömrüm yüz qılıncdan, oxdan keçibdi.

Dərdim sevincimdən bol gələ-gələ,
Qəm salıb boynuma qol gələ-gələ.
Gəlinməz yollarla yol gələ-gələ,
Canım neçə vardan, yoxdan keçibdi.

Qatıb bəy olanlar toya toy, durub,
Düzülüb sırayla boyaboy, durub.
Bir toxun xətrinə yüz ac doydurub,
Bir acın xətrinə toxdan keçibdi.

## TAMAHI BOĞAZINDAN YUXARI...

Bir parça çörəyi daşından çıxır,
Çıxılan ömründən, yaşından çıxır.
Tüstü burum-burum başından çıxır,
Sanki buxarıdı, buxarı adam.

Bu sular durulmur, axır çox da ki,
Bu şimşək görünmür, çaxır çox da ki.
Gözləri açıqdı, baxır çox da ki,
Duyurmu bu axar, baxarı adam.

Bir itik itirib Namaz uşağı,
Gəzir Kür yuxarı, Araz aşağı.
Ağlı topuğundan bir az aşağı,
Tamahı boğazdan yuxarı adam.

## BULUD QURŞAĞIMDAN YUXARI DEYİL

O nədi, başını bulayıb gedir,
Gülün küsdürdüyü bax arı deyil.
Duman ayağımı yalayıb gedir,
Bulud qurşağımdan yuxarı deyil.

Yelləyə-yelləyə alıb əlinə
Belimə dolayır göylər qurşağı.
Gözünü gözümə zilləyib yenə,
Üfüqlər dayanıb məndən aşağı.

Kökü torpaqdadı məndəki gücün,
İstisi, həniri hopur canıma.
Məni burda görüb bir salam üçün
Günəş yavaş-yavaş enir yanıma.

Dərənin üstündə süzür bir qartal,
Hələ də çox şeylər döşümə yatmır.
Məni qanadında gəzdirir xəyal,
Dağlar əl uzadır, çiynimə çatmır.

Belləri əyilsə, əyilməsə də,
Çox şeylər, çox şeylər qocadı məndən.
Qoy deyim deyilsə, deyilməsə də,
Bircə öz papağım ucadı məndən.

Qoysam ayağımı bir addım anrı,
Göyün yaxasından tutar əllərim.
Əlini bəriyə uzatsa Tanrı,
Bu saat ona da çatar əllərim.

Ulduz gözə dəymir göydə bu axşam,
İndi çaydan baxır üzümə Ay da.
Odumu göy tutmaz bu saat çaxsam,
Görün göylər varmı ürəyim boyda.

O nədi, başını bulayıb gedir,
Gülün küsdürdüyü bax arı deyil.
Duman ayağımı yalayıb gedir,
Bulud qurşağımdan yuxarı deyil.

## DƏNİZ YUXUM

Mənim qulağımın dibində dəniz,
Başımın altında balınc dalğalar.
Gözümün önündə qarışıb min iz,
Tökülüb yem gəzir bala qarğalar.

Başımın üstündə göy bir çadırdı,
Ordan çıraq kimi asılıb Ay da.
Kirli uşaq əli kimi sadırdı,
Bağlasan yuyammaz yolları çay da.

Divarsız hörülüb mənim otağım,
Qapısı, bacası yaddanmı çıxıb?!
Qu tükü yalandı, mənim yatağım
İpək darağından, zaddanmı çıxıb?!

Sular layla çalır anam kimicə,
Qağayı kölgəsi örtür üstümü.
Öpüb üz-gözümdən sonam kimicə,
Qabağına qatır yellər tüstümü.

Balıqlar obaşdan girir yuxuma,
Dolur torsuz-zadsız balıqla ovcum.
Könlümə deyirəm, bir az oxuma,
Bu nəğmə qarışıq dənizi qucum.

Barmaqlar qələmim,
Qumlar varağım,
Düzülür dal-dala yosun misralar.
Tanrı barmağıdı bəlkə darağım,
Pozulmaz Tanrıdan gələn sıralar.

Hava elə duru, elə təmizdi,
Dolur ürəyimə, dolur bir həvəs.
Burda bircə mənəm, bir də dənizdi,
Bu səs hardan gəlir, hardan gəlir bəs?!

Günəş ətri gəlir, Ay ətri gəlir,
Nə gözəl, nə gözəl qoxuyur dəniz.
Gecənin qulağı darımı dəlir,
Yenə həzin-həzin oxuyur dəniz.

## SUSUZ DƏYİRMANDA DƏN ÜYÜDÜRLƏR

Hər daş gördüyümüz daşdımı görən,
Adam var, istidi soyuq daş ondan.
Hər yaş gördüyümüz yaşdımı görən,
Quru var, qurudu bəlkə yaş ondan.

Axı bilmirəmmi mən kiməm, nəyəm,
Məni hər ocağın isitməz közü.
Təzələyib kimin ruhunu bəyəm
Kor gözün gülüşü, lal dilin sözü?!

Dünyada çox şeylər bir az oxşayır,
Kül kürkünə dönüb közü qoruyur.
Qın var ki, qılınca görə yaşayır,
Qılınc var, qınını özü qoruyur.

Yol var, yola çıxsan ayaq qoymursan,
Cığır var, qaçan da, qovan da gəlmir.
Bulaq var, suyundan içib doymursan,
Bulaq var, üstünə heyvan da gəlmir.

Ağac var, başının üstündə çətir,
Ağac var, altına girmək də olmaz.
Çəmən var, qoxuyur min cürə ətir,
Çəmən var, gülünü dərmək də olmaz.

Daxıl var, şöhrətdi, şandı insana,
Boş papaq kimidi elə daxıl var.
Ağıl var, günəş də baş əyər ona,
Bir qəpiyə dəyməz elə ağıl var.

Qaçış ustasını qandala vurub,
Çolağı qaçışa çəkirlər hərdən.
Gör kimlər kimlərin qəsdinə durub,
Don tikən xeyirə don tikir şərdən.

Tərsinə fırlanır fələyin çarxı,
Arpanı, buğdanı cən üyüdürlər.
Dağılıb dəhnəsi,
Quruyub arxı,
Susuz dəyirmanda dən üyüdürlər.

## AĞADILAR

Araz olub Kür görəndə,
Səngidilər gur görəndə.
İşıq gələn yer görəndə
Ora pambıq tıxadılar.

Əyrilərə uyub sonra,
Düzü düzdə qoyub sonra,
Gözlərini oyub sonra
Şirin-şirin sığadılar.

Xam görəndə cumur xama,
Buynuzunda gəzir coma.
Yaxın gəlmir daha dama,
Bir əremik buğadılar.

Qabağında dözməz hasar,
Harınlayıb adam basar.
Ağa görsə, quyruq qısar,
Nökər görsə, ağadılar.